# Əlilliyi olan şəxslər üçün BMT-nin İnkişaf Proqramı ilə birgə kiçik bizneslər yaradılır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT İnkişaf Proqramının birgə "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində əlilliyi olan işsiz şəxslər üçün kiçik bizneslər yaradılır.



Onlardan indiyədək biznes planı təsdiq edilmiş 517 nəfərin bir hissəsi artıq aktivlərlə təmin olunaraq öz təsərrüfatlarını qurub.

Bu barədə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi kimi ölkəmizdə fəaliyyət müddəti başa çatan Alessandro Frakasetti ilə görüşdə bildirilib.

Nazir sosial cəhətdən həssas qrupların kiçik sahibkarlığa çıxışına töhfə verən bu layihənin aktiv məşğulluq tədbirlərinin təkmilləşdirilməsinə, əlilliyi olan şəxslərin peşə-əmək və sosial reabilitasiyası işlərinə də dəstəyini qeyd edib. İşsiz şəxslərin əmək bazarına yenidən daxil olması üçün zəruri bilik və bacarıqlara yiyələnmələri məqsədilə layihə çərçivəsində dünyanın aparıcı "Coursera" onlayn tədris sistemi ilə əməkdaşlıq şəraitində kursların təşkil olunmasının əhəmiyyətini diqqətə çatdırıb.

S.Babayev birgə icra olunan "Azərbaycanda İnnovasiya və Məşğulluğun İnkişafı" layihəsinin də gənclərin əmək bazarına çıxışına öz dəstəyini verdiyini qeyd edib, eləcə də əməkdaşlığın davamı kimi əlilliyi olan qadınların və Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsinə yönələn layihənin əhəmiyyətindən danışıb. Nazir həmçinin A.Frakasettinin ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan ilə BMT-in İnkişaf Proqramı arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıb, bu istiqamətdə verdiyi töhfəyə görə ona təşəkkür edərək gələcək fəaliyyətində uğurlar arzulayıb.

A.Frakasetti ölkəmizlə bağlı xoş təəssüratlarını, fəaliyyəti dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıqdan, görülən birgə işlərin nəticələrindən məmnunluğunu diqqətə çatdırıb. Müştərək layihələrin uğurlu əməkdaşlıq təcrübəsi formalaşdırdığını qeyd edərək bu əməkdaşlığın qarşıdakı dövrdə daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Azərbaycan.- 2021.- 21 sentyabr.- S.5.